2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 08 yanvar 2015-ci il tarixli 143 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 09 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran-Astara seçki dairəsindən Mamusta bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Əliyev Zaur Mirzəli oğlu və Əhədov Xalid İlham oğlunun 2015-ci il yanvarın 8-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq tərtib edildiyindən və müəyyən edilmiş şikayətvermə müddətində verildiyindən ekspert qrupunun üzvü tərəfindən araşdırmaya qəbul edilmişdir.

Qeydə alınmış namizədlər Əliyev Zaur Mirzəli oğlu və Əhədov Xalid İlham oğlu 2015-ci il yanvarın 8-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək 76 saylı Lənkəran-Astara seçki dairəsinin dairə seçki komissiyasının 31 dekabr 2014-cü il tarixli, 25/65 saylı qərarı ilə razılaşmadıqlarını bildirərək həmin qərarın ləğv edilməsini xahiş etmişlər.

Müraciət etmiş şəxsə araşdırma aparılması barədə məlumat verilmiş, ona araşdırmada iştirak etmək hüququ izah edilmişdir.

Araşdırma ilə müəyyən olunmuşdur ki, 76 saylı Lənkəran-Astara seçki dairəsindən Mamusta bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər, Azər İbrahimov, Zaur Əliyev, Xalid Əhədov və digərləri səsvermə günü seçki dairəsinin 1, 2 və 3 saylı seçki məntəqələrində ehtimal olunan qanun pozuntuları barədə Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət etmişlər. Həmin müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olduğundan aidiyyəti üzrə araşdırılması üçün dairə seçki komissiyasına göndərilmişdir. Dairə seçki komissiyası Seçki Məcəlləsinin və müvafiq Təlimatın tələblərinə uyğun olaraq müraciəti araşdırmış və araşdırmanın nəticəsi olaraq şikayətin əsassız hesab edilməsi barədə 31 dekabr 2014-cü il tarixli, 25/65 saylı qərar qəbul etmişdir. Qərarın surəti maraqlı subyektlərə poçt vasitəsilə göndərilmişdir.

Araşdırma prosesində 76 saylı Lənkəran-Astara seçki dairəsinin dairə seçki komissiyasından təqdim olunmuş arayışdan müəyyən edilir ki, 23

dekabr 2014-cü ildə keçirilmiş bələdiyyə seçkilərində Mamusta bələdiyyəsinə seçkilər üzrə 1, 2 və 3 saylı seçki məntəqələrində səsvermə günü və səslərin hesablanması ilə bağlı həmin məntəqələrdə müşahidə aparmış şəxslərdən, qeydə alınmış namizədlərdən və digər seçki subyektlərindən qanun pozuntusu olmasına dair məntəqə seçki komissiyasına və dairə seçki komissiyasına yazılı müraciət daxil olmamışdır.

Araşdırma ilə əlaqədar 1, 2 və 3 saylı seçki məntəqələrinin müxtəlif siyasi partiyaları təmsil edən komissiya üzvlərindən və seçkiləri müşahidə etmiş çoxsaylı müşahidəçilərdən, həmçinin səsvermənin nəticələrinə görə kifayət qədər səs toplamamış qeydə alınmış namizədlərdən alınmış izahatlardan müəyyən edilir ki, səsvermə günü və səslərin hesablanması prosesində həmin məntəqələr üzrə seçkilərin nəticələrinə təsir edə biləcək pozuntular baş verməmişdir. Dairənin 1 saylı seçki məntəqəsində səsvermənin gedişi və səslərin hesablanması vebkamera vasitəsilə izlənmişdir.

Araşdırma ilə dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi və şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən edilməmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran-Astara seçki dairəsindən Mamusta bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Əliyev Zaur Mirzəli oğlu və Əhədov Xalid İlham oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş olmuş 08 yanvar 2015-ci il tarixli 143 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin, həmin dairə seçki komissiyasının 31 dekabr 2014-cü il tarixli, 25/65 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov